**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA FELYETON JANRININ TƏŞƏKKÜLÜ VƏ TİPOLOGİYASI

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Günel Vidadi qızı Əhmədova**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Tahirə Qəşəm qızı Məmməd** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Asif Abbas oğlu Hacıyev** |
| | filologiya elmləri doktoru, professor<br>**Rəhilə Məmməd qızı Qeybullayeva** |
| | filologiya elmləri doktoru, dosent<br>**Vaqif Əziz oğlu Yusifov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | akademik, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının Elmi katibi: ____________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: ____________ | filologiya elmləri doktoru, professor<br>**Məmməd İrac oğlu Əliyev** |

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Felyetonlar haqqında ədəbi-nəzəri aspektdə tədqiqatların azlığı onun bu baxımdan daha ətraflı şəkildə araşdırılmasını zəruri edir. Ədəbiyyatşünaslığımızda felyetonun janr sərhədlərinin müəyyənləşdirilməsinə böyük ehtiyac vardır. Çünki felyetonlardan bəhs olunan əksər tədqiqatlarda onun konkret sərhədləri dəqiqləşdirilməmiş, forma müxtəlifliyi, Azərbaycan ədəbiyyatında tutduğu yer və bədii-sosial funksiyası lazımi səviyyədə nəzərə alınmamışdır. Onun konkret janr sərhədləri, əsas xüsusiyyətləri, digər janrlarla oxşar və fərqli cəhətlərinin üzə çıxarılması vacibdir. Bu baxımdan felyetonun nəzəri kontekstdə tədqiqi ədəbiyyatşünaslığımızın aktual problemlərindən biri kimi dəyərləndirilə bilər.

Dünya ədəbiyyatında felyetonun ilk nümunələri XVIII əsrdən yaranmağa başlamışdır. Bu dövrdə tam şəkildə felyeton adı altında olmasa da, felyeton tipli nümunələrə rast gəlmək mümkündür. Lakin bir janr kimi felyetonun formalaşması XIX əsrə təsadüf edir. Bunun əsas səbəblərindən biri mətbuatın zəngin inkişaf yoluna qədəm qoymasıdır.

Ədəbiyyat tarixi hadisələrin, ictimai-siyasi proseslərin təsirsiz ötüşmədiyi bir sahədir. Bədii-publisistik əsərlərdə həyatda baş verən müxtəlif hadisələr öz əksini tapır. Bununla da yazıçı zamanın kəskin məqamlarını, vəziyyətlərini oxucuların mütaliəsinə təqdim edir. İctimai-siyasi proseslər nə qədər gərgin və kəskin xarakter daşıyarsa, bədii-publisistik yazılar da bir o qədər kəsərli, maraqlı və dolğun alınar. XIX əsrin sonu XX əsrin əvvəlləri də öz gərgin və ziddiyyətli siyasi-ictimai ab-havası ilə fərqlənir. Bu, təbii ki, yazılan əsərlərə də öz təsirini göstərirdi. Həmin dövrdə yaşayan ədiblərimiz, sözsüz ki, bu zaman meydana gələn hadisələrə laqeyd qala bilməzdilər. Buna görə də onlar öz mövqelərini əsərləri vasitəsilə ifadə edirdilər. Ədəbiyyat bu baxımdan zamanı, tarixi əks etdirməklə bərabər, həm də ona yön verən bir açardır.

Mətbuatın inkişafı Azərbaycanda bədii sözün, publisistikanın çiçəklənməsinə təkan vermişdir. XVIII əsrin sonu və XIX əsrdə

dünya mətbuatında yaranan yeni Avropa mənşəli müxtəlif janrlar bir qədər sonra – XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda da təşəkkül dövrünü yaşamağa başlamışdır. Felyeton, pamflet kimi mətbuat janrları meydana gəlmiş və inkişaf dövrünə qədəm qoymuşdur.

Yeni janrların yaranması fonunda ədəbiyyatda və publisistikada bir oyanma baş verir, bu sahələr daha da zənginləşir. Yaranan yeni janrlar ədəbiyyatımızda vətəndaşlıq hüququ qazanır, ədəbiyyatda və mətbuatda öz sözünü deyir. Ədiblərimiz də bu yeni janrlara müraciət edir və onların maraqlı və özünəməxsus nümunələrini yaradırlar.

Ədəbiyyatımıza gələn yeni janrlar artıq milli xüsusiyyətlər kəsb etməyə başlamış, həmin janrların milli nümunələri yaranmışdır. Azərbaycan ədəbiyyatında XIX əsrin sonu XX əsrin əvvəllərində yaranıb inkişaf etməyə başlayan felyeton da Avropa mənşəli bir janr olmasına baxmayaraq, ədəbiyyatımızda öz milli koloriti ilə seçilən nümunələri ilə diqqəti cəlb edir. Professor Tahirə Məmmədin irəli sürdüyü nəzəri müddəa felyetonların da həmin aspektdə dəyərləndirilməsi üçün əhəmiyyətlidir: "*Hər hansı bir millətin, xalqın formalaşana qədər və daha sonra keçdiyi bir yol var. Əgər yaranan mətn özündə bu yolun izlərini, yaddaşını, mədəni kodlarını dominant şəkildə qoruyub saxlayırsa o, öz milli kimliyi ilə həmin xalqın ədəbiyyatına məxsusdur. Kənar mühitdə formalaşan ədəbi cərəyandan, janr və formadan bəhs edərkən onun alınma olmasına əsaslanaraq bəzən milli hadisəyə çevrilə bilməyəcəyi haqda təəssürat yaranır. Lakin mətnin strukturunu təşkil edən elementlərin və elementlərarası münasibətlərin, mətnin yaddaş qatlarının incələnməsi bu qənaətin yanlışlığını sübut edir*"[1].

Felyetonların araşdırılmasına Azərbaycan ədəbiyyatşünaslığında bir qədər yer verilsə də, felyetonlarla bağlı ayrıca tədqiqat əsəri çox azdır. Problemin daha dərindən tədqiqinə ehtiyac vardır. Müəyyən tədqiqatların içərisində qısa şəkildə bu janrla bağlı mülahizələrə yer verilmişdir.

[1] Məmməd, T. Q. Milli kimlik və bədii mətn / T. Məmməd. – Bakı: Elm və təhsil, – 2020. – s. 10

Azərbaycanda mətbuatın yaranması və inkişafı yeni janrların ədəbiyyatımıza qədəm qoymasına təkan vermişdir. Xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində bir çox yeni janr mətbuatda öz yerini almağa başlamışdır. Bu janrlar içərisində Avropa mənşəliləri də vardır ki, onlar Azərbaycan ədəbiyyatında yeni bir hadisə kimi böyük əhəmiyyət daşıyır. Avropadan ədəbiyyatımıza keçməsinə baxmayaraq, bu janrlar bizim ədəbiyyatımıza doğmalaşmış, milli xüsusiyyətlər kəsb edərək vətəndaşlıq hüququ qazanmışdır. Belə janrlar sırasında felyetonlar özünəməxsus rola malikdir. Müəyyən bir zaman kəsiyində çox istifadə olunsa da, hazırda elə janrlar var ki, müasir dövrümüzdə onlara çox az müraciət edilir. Felyetonlar da belə janrlardandır. XIX-XX əsrlərdə mətbuatda çox rastlanan bu janrın dirçəlməsi və müxtəlif mətbu orqanlarda – saytlarda, qəzetlərdə, jurnallarda istifadə olunması həm mətbuatın inkişafına, həm də ədəbiyyatımızın zənginləşməsinə xidmət edə bilər. Əvvəlki dövrlərin publisistlərinin parlaq nümunələrini yaratdıqları felyeton janrının süqutunu yox, inkişafını görmək və bu inkişafa bir zərrə də olsa, xidmət etmək Azərbaycan mətbuatı və ədəbiyyatının görkəmli sənətkarlarının ruhu qarşısında borcumuzdur. Dissertasiya bu cəhətdən də olduqca aktualdır.

Felyeton janrının tədqiqi ilə bağlı mövcud araşdırmalardan faydalanmaqla bərabər, onları inkişaf etdirməyə böyük ehtiyac vardır.

Akademik İsa Həbibbəyli "Satira ədəbi növ kimi" məqaləsində haqlı olaraq felyetonu satira janrlarına daxil edir və onu bu kontekstdə dəyərləndirir[2].

1966-cı ildə Yusif Yusifov "Azərbaycan ədəbiyyatında felyeton janrının inkişafı (1930-1940-cı illər)"[3] mövzusunda dissertasiya işini müdafiə etmişdir. Nizami adına Ədəbiyyat İnstitutunda müdafiə olunan dissertasiyada 1930-1940-cı illərdə

---

[2] Həbibbəyli, İ.Ə. Satira ədəbi növ kimi // Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri: [2 cilddə]. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. – c.2. – 2018. – s. 5-12.

[3] Юсифов, Ю.А. Развитие жанра фельетона в Азербайджана (1930–1940 гг.): / автореферат дис., представленной на соискание ученой степени кандидита филологических наук. / – Баку, 1966. – 18 с.

yazılan felyetonlar təhlilə cəlb olunmuşdur.

Sabir Əmirovun "Cəlil Məmmədquluzadənin felyetonları (1905-1906-cı illər)"[4] adlı namizədlik dissertasiyası da felyetonlarla bağlı tədqiqatlardandır.

Veydəddin Pirəliyev "Jurnalistikaşünaslığın əsasları"[5] kitabında müxtəlif mətbuat janrlarından söz açır və burada felyeton janrından da bəhs edir. Nazim Axundovun "Azərbaycan satira jurnalları (1906–1920-ci illər)"[6] tədqiqatında felyetonlar haqqında mülahizələrə və Azərbaycanda çap olunan satirik jurnalların səhifələrində işıq üzü görən felyetonların təhlilinə yer verilmişdir. Salidə Şərifovanın "Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşma prosesi (XX əsrin əvvəllərinə qədər)"[7] monoqrafiyasında felyeton janrı ilə bağlı ayrıca bir bölmə vardır. S.Şərifovanın "Qərb və Şərq ədəbiyyatında janr qarışıqlığı və ədəbi təsirin nəzəri problemləri (Теоретические проблемы жанрового смешения и литературного влияния в западной и восточной литературе)"[8] adlı tədqiqatında da felyeton janrından bəhs edilir.

Professor Tahirə Məmməd "Üzeyir Hacıbəylinin kiçik həcmli dramlarında forma və məzmun, janr problemi"[9] adlı tədqiqatında felyeton janrından söz açmış, bir çox tədqiqatçının söylədiyi "janrın ömrünü tamamlaması" fikri ilə razılaşmamışdır.

Pərvin Hüseynovanın "XX yüzilliyin əvvəlləri Azərbaycan

---

4 Амиров, С. Фельетоны Джалила Мамедкулузаде: / автореферат дис. представленной на соискание ученой степени кандидита филологических наук. / – Баку, 1967. – 32 с.

5 Pirəliyev, V. Jurnalistikaşünaslığın əsasları / V.Pirəliyev. – Bakı: Təknur, – 2013. – 496 s.

6 Axundov, N. Azərbaycan satira jurnalları (1906-1920-ci illər) / N.Axundov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, – 1968. – 356 s.

7 Şərifova, S. Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşması prosesi (XX əsrin əvvəllərinə qədər) / S.Şərifova. – Bakı: Elm, – 2005. – 240 s.

8 Шарифова, С. Теоретические проблемы жанрового смешения и литературного влияния в западной и восточной литературе / С. Шарифова. – Москва, «У Никитских ворот», – 2021. – 530 с.

9 Məmməd, T.Q. Üzeyir Hacıbəylinin kiçik həcmli dramlarında forma və məzmun, janr problemi // Üzeyir Hacıbəylinin anadan olmasının 135 illiyinə həsr olunmuş VIII Beynəlxalq Elmi simpozium "Tarixdə şəxsiyyətin rolu", – Qars, – 2020, – s. 11-14.

satirik nəsrində milli istiqlal ideyalarının bədii əksi”[10] adlı dissertasiyasında XX əsrin əvvəllərində mətbuatda 1930-cu illərə qədər çap olunan felyetonlar tədqiqata cəlb olunmuşdur.

Zöhrə Fərəcovanın “İrşad” qəzetində ədəbiyyat məsələləri”[11] adlı dissertasiyasında “İrşad” qəzetində çap olunan felyetonlar da təhlil edilmişdir.

Türkiyə ədəbiyyatşünaslığında felyeton haqqında araşdırmalara Ərdoğan Uyğurun “Molla Nəsrəddin” dərgisində felyetonlar”[12] məqaləsini misal göstərə bilərik. Məqalə janrın yaranması, əsas xüsusiyyətləri və “Molla Nəsrəddin” jurnalında rolu haqqında ətraflı fikrin formalaşmasında xüsusi əhəmiyyətə malikdir.

Rusiyada felyetonlar haqqında aparılan tədqiqatlar sırasında Y.Tınyavova və B.Kazanskinin redaktorluğu ilə çap olunan “Felyeton (Фельетон)”[13] adlı məqalələr toplusunu xüsusi qeyd etmək lazımdır. Kitabda İ.Qruzdyev, A.Daktil, Y.Jurbina, D.Zaslavski, A.Zuyev, M.Koltsov, Y.Oksman, N.Poqodin, Q.Rıklin, V.Serj, B.Tomaşevski və V.Şklovskinin felyeton janrı haqqında məqalələri toplanmışdır, Y.Jurbinanın[14], D.Zaslavskinin[15], M.Koltsovun[16], L.Yerşovun[17], A.İstominanın[18], Y.Severinanın[19] və

---

[10] Hüseynova, P. XX yüzilliyin əvvəlləri Azərbaycan satirik nəsrində milli istiqlal ideyalarının bədii əksi: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2021. – 178 s.

[11] Fərəcova, Z.F. “İrşad” qəzetində ədəbiyyat məsələləri: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2021. – 177 s.

[12] Uygur, E. *Molla Nasreddin* dergisi’nde felyetonlar // – Ankara: Modern türklük araştırmaları dergisi, – 2006. Cilt: 3, sayı: 3, – s. 7-21

[13] Фельетон. Сборник статей / Под ред. Ю.Тынянов, Б.Казанский. – Ленинград: Academia, – 1927, – 96 с.

[14] Журбина, Е.И. Теория и практика художественно публицистических жанров (очерк, фельетон) / Е. Журбина. – Москва: Мысль, – 1969, – 399 с.; Журбина, Е.И. Фельетон в газете 40-х годов / Е. Журбина. – Москва: Огонек, – 1930, – 48 с.; Журбина, Е.И. Искусство фельетона / Е. Журбина. – Москва, 1965, –287 с.

[15] Заславский, Д.И. Истоки и пути фельетона / Д.Заславский. – Москва: Огонек, – 1931. – 96 с.

[16] Кольцов, И.В. Писатель в газете / И.Кольцов. – Москва: Советский писатель, – 1961, – 140 с.

[17] Ершов, Л. Стихотворный фельетон Маяковского // Literatura, Umenia Revoluce, BRNO, – 1973, – с. 115-120.

b. janrının müxtəlif aspektlərdən araşdırılmasına həsr olunmuş kitab və məqalələri felyetonla bağlı mühüm mənbələrdəndir.

Felyeton haqqında ingilisdilli mənbələrə D.Jernokleyevin[20], T.Şavladze və M.Maxaradzenin[21], P.MakBraydın[22], B.Teriaultun[23] tədqiqatlarını misal göstərə bilərik.

Bu elmi qaynaqlarla yaxından tanış olunmuş və dissertasiyada istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan felyetonlarıdır. Tədqiqatın predmetini Azərbaycanda müxtəlif mətbu orqanlarda çap olunan felyetonların timsalında felyetonun janr identifikasiyası, təşəkkülü, felyetonların forma və məzmun xüsusiyyətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas

---

[18] Истомина, А.Е Характеристики жанра политического фельетона: [Електронный ресурс] // Известия ВГПУ. 2007. №5. – 09.03.2024. URL: https://cyberleninka.ru/article/n/harakteristiki-zhanra-politicheskogo-felietona:; Истомина, А.Е. Характеристики жанра политического фельетона: / автореферат дис. на соискание ученой степени кандидата филологических наук. / – Волгоград, 2008. – 23 с.

[19] Северина, Е.А. Фельетон как гибридный жанр публицистического дискурса (на материале немецкоязычной прессы) // Вестник МГЛУ, – 2014. Выпуск 19 (705), – с. 122-133; Северина, Е.А. Фельетон как средство воздействия на общественное мнение //Вестник Московского государственного лингвистического университета. Гуманитарные науки, – 2016. №1 (762), – с. 79-92; Северина, Е. А. Гибридные характеристики современного немецкоязычного фельетона // Вестник московского государственного лингвистического университета. гуманитарные науки, – 2021. №6 (848), – с. 148-159.

[20] Zhernokleyev, D. Dostoevskii, the Feuilleton and the Confession // Slavonic and East European Review, – 2021. vol. 99, no. 1, – p. 71-97.

[21] Shavladze, T. & Makharadze, M. Modern English Feuilleton. Galaxy: An International Multidisciplinary Research Journal, – 2017. Vol. 6, Issue II, – pp. 29-32.

[22] McBride, P. “Serial Untruth: The Feuilleton and the Ornamental Image”. Truth in Serial Form: Serial Formats and the Form of the Series, 1850–1930, edited by Malika Maskarinec, – Berlin, Boston: De Gruyter, – 2023. – p. 277-290

[23] Thériault, B. Feuilleton: Biography of a genre inspired by Siegfried Kracauer: [Electronic resource] / Sociologie Et Sociétés. – February 4, 2022. URL: https://www.academia.edu/100544325/Feuilleton.

məqsədi felyeton janrının identifikasiyası, bu janrın ədəbiyyatımız üçün əhəmiyyəti və onun forma və məzmun xüsusiyyətlərinin müəyyənləşdirilməsidir. Bunun üçün yerinə yetirilməsi vacib olan vəzifələr aşağıdakılardır:

- Felyetonun janr xüsusiyyətlərinin araşdırılması;
- Felyetonun janr sərhədlərinin müəyyənləşdirməsi;
- Felyeton janrında baş verən dəyişmələrin, felyetonun müxtəlif formalarının təhlili;
- Felyetonun hibrid janr kimi həm bədii, həm də publisistik əhəmiyyət kəsb etməsinin əsaslandırılması;
- Felyetonun ideya-məzmun özəlliklərinin araşdırılması;
- Felyetonlarda ictimai-siyasi proseslərin və işıqlandırılmasının tədqiqi;
- Azərbaycan felyetonların ideya funksiyasının vətən və millət problemi ilə daha çox bağlı olması məsələsinə aydınlıq gətirilməsi;
- Felyeton janrının forma təsnifatının aparılması;
- Nəsrlə, nəzmlə və dramatik nitq komponentləri əsasında yazılan felyetonların nəzəri kontekstdə analiz edilməsi.

**Tədqiqat metodları.** Bu tədqiqat işinin yerinə yetirilməsi zamanı müqayisəli, tarixi-müqayisəli, müqayisəli-tipoloji, semiotik, analiz, sistemləşdirmə tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar bunlardır:

- Felyeton Avropa mənşəli janr olmasına baxmayaraq, ədəbiyyatımız və mətbuatımız üçün olduqca əhəmiyyətlidir. Bu janr ədəbiyyatımıza daxil olaraq milli xüsusiyyətlər qazanmış və mətbuatımızın mühüm janrlarından biri kimi öz layiqli yerini almışdır. Məhz bu xüsusiyyətləri ilə ədəbiyyatımıza doğmalaşmışdır.
- Felyeton hibrid janrdır. O, həm bədii, həm də publisistik xüsusiyyətləri ilə seçilir.
- Felyetondan bəhs edərkən çox vaxt “janrın ölümü” məsələsindən söz açılır. Lakin felyeton janrı hazırda həm ənənəvi formada, həm yeni formalarda (məsələn, felyeton-dialoq, felyeton-məktub, felyeton-müsahibə, skeç-şou mətnləri və s. kimi nəzərə çarpır) öz ömrünü davam etdirir. “Felyetonun ölümü” fikri onun

müxtəlif formalarda təzahürü ilə bağlıdır. Lakin apardığımız tədqiqat nəticəsində qeyd etmək olar ki, felyetonlar müasir dövrümüzdə də mövcuddur.

- Azərbaycan felyetonlarında vətən, millət idealının əks olunması böyük əhəmiyyətə malikdir.

- Felyetonların nəsrlə, nəzmlə və dramatik nitq komponentləri ilə yazılan formaları var.

**Tədqiqatın elmi yeniliyi.** Bu dissertasiyada ilk dəfə olaraq Azərbaycan ədəbiyyatında felyeton janrı bütövlükdə tədqiqat obyekti kimi seçilmişdir. Konkret nəzəri müddəalarla felyeton janrının əsas xüsusiyyətləri, inkişafı və tipologiyası əsaslandırılmış, janrın Azərbaycan ədəbiyyatı üçün əhəmiyyəti və ediblərimizin bu janra müraciəti araşdırılmışdır. Burada felyetonun janr identifikasiyası, Azərbaycan ədəbiyyatında felyetonun təşəkkülü, ideya-məzmun və forma tipologiyası tədqiqata cəlb olunmuşdur. Felyeton janrında yazılan əsərlərin dərc olunduğu mətbu orqanlar tədqiq olunmuş, bu janrın mətbuatda tutduğu yer və daşıdığı əhəmiyyət analiz edilmişdir. Eyni zamanda burada ilk dəfə olaraq hazırda felyeton janrının mövcud olub-olmaması problemi də araşdırılmış, bu haqda mühüm elmi nəticələr əldə edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Felyeton janrının mətbuatımız və ədəbiyyatımızda yeri və rolu danılmazdır. Bu janrın konturları dəqiq müəyyənləşdirilməli, problemə konkret nəzəri yanaşma formalaşmalıdır. Dissertasiya işində aparılan təhlillər və əldə edilən elmi nəticələr gələcəkdə də bu istiqamətdə araşdırmaların aparılması üçün zəmin yarada bilər. Çünki hazırda felyeton haqqında araşdırma aparmaq istəyən tədqiqatçı mənbə azlığı ilə üzləşir. Bu tədqiqat işi həmin problemin aradan qaldırılmasında xüsusi əhəmiyyət kəsb edir. Məhz bu dissertasiya gələcəkdə həmin sahədə aparılacaq tədqiqatlar üçün mühüm bir mənbə kimi istifadə edilə bilər. Bu dissertasiya felyetonların araşdırılması istiqamətində yeni tədqiqatların aparılmasına təkan verməsi baxımından da olduqca vacibdir.

Dissertasiya həm ədəbiyyatşünaslıq, həm də jurnalistika ilə maraqlananlar, eyni zamanda bu sahədə təhsil alan tələbələr, magistrantlar və doktorantlar üçün mühüm bir vəsait kimi istifadə

oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, eləcə də xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap olunan məqalələrdə öz əksini tapmışdır. Müəllif dissertasiya ilə bağlı ölkə daxilində və xaricdə keçirilən konfranslarda məruzələrlə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (17546 işarə), üç fəsil (birinci fəsil – 57706 işarə; ikinci fəsil – 73103 işarə; üçüncü fəsil – 50752 işarə), nəticə (3877 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 202984 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası, yerinə yetirildiyi təşkilatın adı və dissertasiyanın həcmi göstərilmişdir.

Dissertasiya işinin **“Felyeton janrının identifikasiyası, yaranması və Azərbaycan ədəbiyyatında təşəkkülü”** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. **“Janrın identifikasiyası, poetikası və sənətkarlıq xüsusiyyətləri”** adlı birinci paraqrafda felyeton janrının identifikasiyası və janr sərhədləri araşdırılmışdır. Bu janrın əsas xüsusiyyətləri haqqında təsnifat aparılmış, digər janrlarla oxşar və fərqli cəhətləri öyrənilmiş, poetikası və sənətkarlıq xüsusiyyətləri tədqiq olunmuşdur. Eyni zamanda burada janrın hibridliyi məsələsinə də toxunulmuşdur. Bütün bu qeyd olunan məqamların üzə çıxarılması ilə felyeton janrının ədəbiyyatımızdakı

yeri və rolu müəyyənləşdirilmişdir.

Felyetonun janr xüsusiyyətləri ilə bağlı müxtəlif fikirlər vardır. Belə ki, tədqiqatlarda onu bəzən yalnız publisistik janr kimi səciyyələndirirlər. Tədqiqatların bir qismində isə onun bədii xüsusiyyətlərinə diqqət yetirilsə də, publisistik cəhətlərindən söz açılmır. Felyetonun həm bədii, həm də publisistik kontekstdə araşdırıldığı tədqiqatlar da vardır ki, belə kompleks yanaşma janrın təhlilində böyük əhəmiyyətə malikdir. Janrın hibridliyini göstərən tədqiqatlara əsaslanaraq belə qənaətə gəlirik ki, felyetonu araşdırarkən onun hibrid janr olmasını nəzərə alaraq hərtərəfli tədqiq etmək vacibdir. Hadisələrin təsvirində bədiilikdən yararlanma, bədii ifadələrdən, təhkiyə üsullarından, ironiya və satiradan, dramatik nitqdən – monoloq, dialoq və poliloqdan istifadə felyetonun əsas xüsusiyyətlərini təşkil edir.

Birinci fəslin ikinci paraqrafı **"Janrın yaranması və Azərbaycan ədəbiyyatında təşəkkülü"** adlanır. Bu paraqrafda janrın yaranma tarixi və Azərbaycan ədəbiyyatında formalaşıb inkişaf etməsindən bəhs olunur. Felyeton janrında zaman keçdikcə dəyişikliklərin, transformasiyaların meydana gəlməsi məsələləri də öyrənilmişdir.

Əvvəlcə felyeton Fransada yaranmış, sonralar dünyaca məşhur bir janra çevrilmişdir. Felyeton sözünün mənası Merriam-Vebster lüğətində belə verilmişdir: Felyeton fransızca "feuille" sözündəndir və "səhifə, yarpaq" mənasını ifadə edir. "*Söz fransız dilində vərəq mənasını ifadə edən "feuillet"in kiçiltmə formasıdır və latın dilindəki "folium" sözündən düzəlmişdir*"[24].

Bəzi mənbələrdə felyetonun yaranması XVIII əsrə, bəzi mənbələrdə isə XIX əsrə aid edilir. Əksər mənbələrdə felyetonun yaranma tarixinin Fransada çap olunan "Jurnal de Deba" adlı qəzetdə 28 yanvar 1800-cü ildə felyeton adlı ayrıca bir bölmənin əlavə edilməsi ilə başlandığı qeyd olunur. Felyeton bölməsində teatr icmalları, incəsənət, ədəbiyyat, dəb haqqında yazılar verilirdi. Bu tarix felyeton janrının adlandırılması baxımından çox önəmlidir.

[24] Merriam-Webster. Feuilleton: [Electronic resource] // In Merriam-Webster.com dictionary. – May 17, 2023. URL: https://www.merriam-webster.com/dictionary/feuilleton.

Həmin tarixdən əvvəl də Fransada və digər Avropa ölkələrində felyetonlar yazılırdı. Amma 1800-cüilədək bu yazılar felyeton adlandırılmırdı. Janrın felyeton adlandırılması "Jurnal de Deba"nın redaktorları Julyen Lui Joffrua və Böyük Bertinin (Lui-Fransua Bertin) təşəbbüsü ilə bağlıdır[25]. Onların 1800-cü ildə qəzetdə felyeton adlanan ayrıca bir bölmə yaratması felyetonun bir termin kimi formalaşmasına təkan vermişdir. İlk nümunələri XVIII əsrdə Fransada meydana gələn felyeton XIX əsrdə bir janr kimi formalaşmışdır.

Azərbaycanda felyeton janrı XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində formalaşıb inkişaf etməyə başlamışdır. Bəzi tədqiqatlarda felyeton janrının ədəbiyyatımıza gəlişini "Əkinçi" qəzetinin adı ilə bağlayırlar. "Əkinçi" qəzetində onun ilkin nümunələrinin meydana gəldiyini qeyd edirlər. Salidə Şərifova Azərbaycan ədəbiyyatında felyeton janrının yaranmasını bəzi tədqiqatçıların H.Zərdabinin adı ilə bağladığından bəhs edir. XIX əsrin sonlarını felyeton janrının həm yaranma, həm də yüksək inkişaf dövrü kimi xarakterizə edir və bəzi mənbələrdə bu dövrün "felyetonun qızıl dövrü" kimi səciyyələndirilməsindən söz açır. Felyeton janrında yazdıqları əsərləri ilə milli ədəbiyyatımızın inkişafına böyük töhfə verən sənətkarlar sırasında H.Zərdabi, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, N.Nərimanovun adlarını çəkir[26].

Bir qədər sonra "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" kimi qəzetlər işıq üzü görmüşdür. Yeni mətbu orqanların yaranması və inkişafı nəticəsində mətbuatımıza yeni janrlar gəlir, proses yüksək inkişaf sürəti ilə davam edir və felyeton janrı artıq mətbuatımızda mövcudluğunu göstərib təsdiq edir. "Avam gəzmək – yuxu yatmaqmı dedin?" başlıqlı felyeton "Kəşkül" jurnalında felyetonların çap olunduğunu göstərir. Felyeton 1890-cı ildə

---

25 Definitions for feuilleton: [Electronic resource] / March 6, 2023. URL: https://www.definitions.net/definition/feuilleton.

26 Шарифова, С. Теоретические проблемы жанрового смешения и литературного влияния в западной и восточной литературе / С. Шарифова. – Москва, «У Никитских ворот», – 2021. – с. 441.

“Azərbaycanlı” imzası ilə nəşr olunmuşdur[27]. “Kəşkül”də S.Ünsizadə, C.Ünsizadə, S.Atamalıbəyov və b. felyetonlar çap etdirmişdir.

“Həyat” qəzeti çap olunmağa başladığı zamandan, yəni 1905-ci ildən etibarən onun səhifələrində bir çox felyetonların işıq üzü gördüyünü qeyd etmək lazımdır. Burada Üzeyir Hacıbəyli, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov və b. ədiblərimizin felyetonlarına yer verilmişdir.

Bəzən felyeton janrının ilk nümunələrinin “Molla Nəsrəddin” jurnalında dərc olunduğunu söyləsələr də, yuxarıda qeyd etdiyimiz məqamlardan aydın olur ki, felyetonlar “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasından əvvəl də mətbu orqanlarımızda nəşr edilirdi.

XX əsrin əvvəllərində bir çox satirik jurnallar dərc olunurdu ki, bu jurnalların da əksəriyyətində felyeton janrında əsərlərə yer verilirdi. “Molla Nəsrəddin”, “Azərbaycan”, “Babayi-Əmir”, “Bəhlul”, “Kəlniyyət”, “Məşəl”, “Məzəli”, “Şeypur”, “Tartan-partan”, “Tuti”, “Zənbur”, Arı”, “Lək-lək”, “Mirat” və s. kimi mətbu orqanlarda çoxsaylı felyeton nümunələrinə rast gəlinirdi.

Felyeton janrının daha geniş vüsət almasında Cəlil Məmmədquluzadə və “Molla Nəsrəddin” jurnalı ətrafında toplaşan bir çox ədiblərimizin (Ə.Nəzmi, Ə.Qəmküsar, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev və b.) böyük rolu var. Jurnalda mütəmadi olaraq felyeton janrında əsərlər dərc edilir və bu əsərlər vasitəsilə oxucular dövrün ictimai-siyasi problemlərindən agah olurdular.

Mir Cəlal, Ceyhun Hacıbəyli, Səməd Mənsur, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Məmmədəli Sidqi kimi bir çox dahi ədiblərimizin də felyeton janrının inkişafında xüsusi xidmətləri olmuşdur.

“Şeypur” və “Zənbur” satirik jurnalları ermənilərin törətdikləri fəlakətləri işıqlandırmaqda xüsusi bir missiyanı yerinə yetirirdi. Bu jurnallar vasitəsilə ermənilərin törətdikləri vəhşiliklər ifşa edilir və

---

[27] Şərifova, S. Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşması prosesi (XX əsrin əvvəllərinə qədər) / S.Şərifova. – Bakı: Elm, – 2005. – 240 s.

kəskin tənqid atəşinə tutulurdu.

Sovet dövründə "Kirpi" jurnalının felyeton janrının inkişafında böyük xidmətləri olmuşdur. "Kirpi" jurnalında Cahangir Gözəlov, Əvəz Sadıq, Hüseyn Abbaszadə, Ş.Şərifov, Ceyranxanım Rzayeva, Hüseyn Hüseynov, Firudin Mirzəyev, Ələkbər Babayev, Rüfət Əhmədzadə, Fazil Abbasov, Mirqəfər Cəfərov və s. imzalarla bir çox felyetonlar çap edilmişdir.

Əli İldırımoğlu da felyeton janrında əsərlər qələmə almışdır. Onun müxtəlif mətbu orqanlarda çap olunan felyetonları "Yazım, yazmayım?...", "Telepat" və s. kitablarında toplanmış və oxucuların mütaliəsinə verilmişdir.

Müasir dövrdə felyetonların mövcud olub-olmaması məsələsi ilə bağlı qeyd edə bilərik ki, felyetonlar fərqli formalarda mövcudluğunu davam etdirir. Hazırda qəzet və jurnal səhifələrində, internet saytlarında felyetonlara rast gəlmək mümkündür. Bəxtiyar Sadıqov, Mətanət Məmmədova, Yunus Oğuz, Fəxrəddin Qoca, Ağasəfa və b. felyeton janrında əsərlər qələmə almışlar. Müasir zamanın tələbləri felyeton janrında da dəyişikliklərin, yeniliklərin yaranmasına gətirib çıxarmışdır. Felyetonlar bir çox ekran əsərlərinin, tamaşaların, skeç-şouların mətnləri kimi nəzərə çarpmağa başlamışdır.

Birinci fəsildə aparılan tədqiqatlar zamanı əldə edilən nəticələrin əks olunduğu məqalələr[28],[29],[30] Respublikada və xaricdə çap olunan nüfuzlu elmi jurnallarda dərc edilmişdir. Eyni zamanda doktorant xaricdə keçirilən elmi konfranslarda məruzələrlə [31],[32],[33]

---

[28] Əhmədova, G.V. Felyetonun janr identifikasiyası // – Bakı: Poetika.izm, – 2021. №1, – s. 103-107.

[29] Əhmədova, G.V. Felyetonların skeç-şouların yaranmasına təsiri // – Bakı: Filologiya məsələləri, – 2024. №5. – s. 351-357.

[30] Ahmadova, G.V. Feuilleton in the context of journalistic and literary texts // Journal of Language and Cultural Education, – 2023. Vol. 11, Issue: 3, – pp. 34-38.

[31] Əhmədova, G.V. Felyeton janrının yaranması və inkişafında Cəlil Məmmədquluzadənin rolu / – Bakı: Poetika.izm, – 2023. №2, – s. 90-99.

[32] Ahmedova, G.V. Azerbaycan edebiyatında felyetonlar: gelişimi ve işlevleri // "Gagavuzya: Dil, Tarih, Kültür" Uluslararası Bilimsel Sempozyumu. – Moldova: Komrat Devlet Üniversitesi, – 1 dekabr, – 2023, – s. 141-145.

çıxış etmişdir.

Dissertasiya işinin ikinci fəsli **"Felyeton janrının ideya-məzmun tipologiyası"** adlanır. Bu fəslin **"Janrın ictimai-siyasi məzmunu və gülüşün felyetondakı funksiyası"** adlanan birinci paraqrafında felyeton janrının ideya-məzmun tipologiyası tədqiq olunmuş, Azərbaycan felyetonlarının parlaq nümunələrinə müraciət edərək janrın ədəbiyyatımızda qazandığı milli xüsusiyyətlər öyrənilmişdir.

Felyetonların ideya-məzmun xətlərini, ifşa hədəflərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Ana dili məsələsi;
- Çar Rusiyasının müstəmləkəçilik siyasəti;
- Avamlıq, gerilik, cəhalət;
- Cənubi Azərbaycan mövzusu, Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər, İran istibdadı;
- İctimai-siyasi məsələlərin inkişafı;
- Tarixi-siyasi proseslər;
- Rüşvətxorluq, xalqın malına göz dikən hakim dairələr;
- Vətəni, milləti düşünməyənlər, vətənin inkişafı üçün çalışmayanlar.

Felyeton janrı ictimai-siyasi məzmunu ilə seçilir. Bu janrda yazılan əsərlərdə satira ictimai-siyasi hadisələrin, ictimai bəlaların, nöqsanların ifşasında böyük rola malikdir. Satira kəskin tənqidi gülüşdür. O, cəmiyyətdə baş verən hadisələri və problemləri tənqid edən yazıçının ən böyük silahıdır. Ədəbiyyatda satira böyük əhəmiyyətə malikdir. Sənətdə, ədəbiyyatda gülüşün xüsusi yeri var. Çox ciddi bir məsələ bəzən gülüşün gücündən istifadə etməklə əvvəlkindən daha təsirli şəkildə oxuculara çatdırılır. Burada felyetonlar böyük əhəmiyyət kəsb edir. Oxucuları bezdirməyən, yormayan bu yazıların mühüm məsələlərin üzə çıxarılmasında böyük xidməti olmuşdur. Bu paraqrafda gülüşün mahiyyəti haqqında nəzəri mənbələrə də müraciət edilmiş, gülüşün felyetonlar baxımından əhəmiyyəti tədqiq olunmuşdur. Burada bir çox

[33] Ahmadova, G.V. Feuilleton: main characteristics and themes // Latin American Conference on Social Sciences and Humanities, – Villahermosa, – November 5-6, – 2021, – p. 105.

ədiblərimizin felyetonları təhlilə cəlb edilmişdir.

İkinci fəslin **"Felyeton janrında Vətən və millətin müstəqilliyi, tərəqqisi ideyasının inikası problemi"** adlanan ikinci paraqrafında xaricdən ədəbiyyatımıza daxil olan bir janrın bizim görkəmli sənətkarlarımızın yaradıcılığı sayəsində necə doğmalaşması və milli çalarlar qazanması vətən, millət idealının felyetonlarda əks olunması kontekstində araşdırılmışdır.

XX əsrin əvvəllərində bir çox satirik jurnallar dərc olunurdu ki, bu jurnalların da əksəriyyətində felyeton janrında əsərlərə yer verilirdi. "Molla Nəsrəddin", "Həyat", "Azərbaycan", "Babayi-Əmir", "Bəhlul", "Kəlniyyət", "Məşəl", "Məzəli", "Şeypur", "Tartan-partan". "Tuti", "Zənbur", Arı", "Mirat" və s. kimi mətbu orqanlarda çoxsaylı felyeton nümunələrinə rast gəlinirdi.

Günümüzdə aktual olan erməni məsələsi haqqında "Şeypur" jurnalında bir çox məqalə və felyeton dərc olunmuşdur. Bu "Şeypur" jurnalında əsas mövzu xətlərindən biri kimi nəzərə çarpır. "Şeypur" və "Zənbur" satirik jurnalları ermənilərin törətdikləri fəlakətləri işıqlandırmaqda xüsusi bir missiyanı yerinə yetirirdi. Bu jurnallar vasitəsilə ermənilərin törətdikləri vəhşiliklər ifşa edilir və kəskin tənqid atəşinə tutulurdu.

Bədii əsərlər tarixi hadisələrin ifşasında böyük əhəmiyyətə malikdir. Bu baxımdan felyeton janrı xüsusi olaraq seçilir. Felyetonlar tarixi-siyasi mənzərənin təqdimində böyük rolu olan janr kimi diqqəti cəlb edir. XIX əsrin sonu XX əsrin əvvəllərində mətbuatda geniş yer verilən felyetonlar xalqın baş verən hadisələrdən agah olması üçün mühüm mənbələr sırasında özünə layiqli yer qazanmışdır. Dövrün ictimai olaylarının gərgin inkişafı fonunda müəlliflər mətbuatda öz yazıları ilə oxucularını məlumatlandırmağa, onlara hadisələri bütün gerçəkliyi ilə çatdırmağa çalışırdılar. Bəhs etdiyimiz dövrdə xalqımızın başına gətirilən faciələr yazıçı və şairlərimizin daim diqqət mərkəzində olmuş, onlar problemlərin kökü, mahiyyəti haqqında fikirlərini öz əsərləri vasitəsilə ifadə etmişlər.

Üzeyir Hacıbəyli ədəbiyyatımızda felyeton janrını həm forma, həm də ideya-məzmun baxımından inkişaf etdirən ədiblərimizdəndir. Üzeyir Hacıbəyli məqalə və felyetonlarında

erməni məkrinin ifşa olunmasına xüsusi diqqət yetirmişdir. Onun "Ay ötür, gün keçir" adlı felyetonunda hürriyyət, ədalət kimi sözlərin Rusiyada müxtəlif firqələr üçün kəsb etdiyi fərqli mənalara ironiyadan istifadə edərək toxunur. Felyetonda erməni xislətinin ifşa olunması ilə bağlı hissəyə diqqət yetirək: *"Erməni "Daşnaksütyun" firqəsinin dilində "ədalət" bundan ibarətdir: qonşuya badalaq vurub özünü irəli soxmaq (...)"* [34]. Burada müəllif bir cümlə ilə belə ermənilərin iç üzünü çox yaxşı açıqlayır. Öz mənfəəti üçün qonşunun quyusuna qazmağa hazır olan ermənilər kəskin satira atəşinə tutulur.

Felyeton janrının yaranması və inkişafında Cəlil Məmmədquluzadənin rolu danılmazdır. Avropa mənşəli janrlardan biri olan felyetonun milli hadisəyə çevrilməsində və ədəbiyyatımızda vətəndaşlıq qazanmasında Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalının çox böyük xidməti olmuşdur.

XIX əsrin sonları və XX əsrin əvvəllərində yaranan felyetonlarda milli düşüncə və milli ideallar əsas amillər kimi nəzərə çarpır. Vətən, millət idealı bu zaman yazılan felyetonların məzmununun əsasında durur. Həmin dövrdə yazıb-yaradan ədiblərimizin felyetonlarında vətənin taleyi, gələcəyi məsələlərinə xüsusi diqqət yetirilirdi.

Felyeton janrını daha da zənginləşdirən, ona milli çalarlar qatan dahi ədib Cəlil Məmmədquluzadə dövrün ictimai hadisələrini yaxından izləmiş, bir çox məsələlərin işıqlandırılmasına felyetonlarında yer vermişdir. Onun tənqid və ifşa hədəflərinə çevirdiyi problemlər gündəlik həyatda hər kəsin gördüyü, rastlaşdığı hadisələrdir, amma onların bədii sözlə kəskin şəkildə ifadə edilməsi Cəlil Məmmədquluzadə kimi görkəmli sənətkarın qələminin gücünə əsaslanır.

Akademik İsa Həbibbəyli Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı ilə bağlı yazır: *"Cəlil Məmmədquluzadənin ardıcıl və böyük səyləri sayəsində XX əsrin əvvəllərində Azərbaycan yaradıcı ziyalılarının "Molla Nəsrəddin" ordusu formalaşmışdır. ...Geniş mənada "Molla Nəsrəddin" dərgisi tənqidi-realist*

---

[34] Hacıbəyli, Ü. Seçilmiş əsərləri / Ü. Hacıbəyli. – Bakı: TEAS Press, – 2022. – s. 370.

*ədəbiyyatın möhkəm ədəbi cəbhəsi, mollanəsrəddinçi ədiblərin əsərlərinin çoxcildlik külliyyatıdır"*[35].

Cəlil Məmmədquluzadə felyetonlarında ironiyanın istifadə imkanları olduqca genişdir. 2 oktyabr 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında yazıçının "Lay-lay" adlı felyetonu işıq üzü görmüşdür. O, bu felyetonda Sabirin (Hop-hopun) "lay-lay hürriyyət" ifadəsinə yer vermiş, İranda "hürriyyətin lay-lay deyərək yatırılması" məsələsinə toxunmuşdur. Burada azadlıq, hürriyyət kimi məfhumlardan çox uzaq olan cəmiyyətə ironiyadan istifadə edərək bir mesaj verilmişdir: əslində hürriyyət bir millətin, cəmiyyətin var olması üçün ən mühüm amillərdəndir.

Bu fəsildə Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Əvəz Sadıq, Cahangir Gözəlov kimi ədiblərimizin felyetonları tədqiqata cəlb edilmişdir.

İkinci fəsildə aparılan tədqiqatlarla bağlı məqalələr[36],[37],[38] nüfuzlu elmi jurnallarda çap olunmuşdur. Eyni zamanda doktorant Respublikada keçirilən elmi konfransda məruzə ilə[39] çıxış etmişdir.

Dissertasiyanın üçüncü fəsli **"Felyeton janrının forma təsnifatı"** adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. Fəslin **"Nəsrlə yazılan felyetonlar"** adlanan birinci paraqrafı bu texnikaya əsaslanan felyetonların forma xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur.

Əsərlərin yazı texnikası və strukturu müəllif-oxucu ünsiyyətində, fikrin ifadə imkanlarının gerçəkləşməsində önəmli rol oynayır. Nəyin necə təqlid olunmasında yazı mexanizmi tamamlayıcı funksiyanı yerinə yetirir. Ədəbiyyatşünaslığımızda

---

[35] Həbibbəyli, İ.Ə. Mollanəsrəddinçilik təlimi və müasirlik // Azərbaycan" qəzeti. – 2009, 7 aprel. – s. 6.

[36] Əhmədova, G.V. Felyeton janrının təşəkkülündə Üzeyir Hacıbəylinin rolu / – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2023. №1, – s. 71-77.

[37] Əhmədova, G.V. Felyeton janrının yaranması və inkişafında Cəlil Məmmədquluzadənin rolu / – Bakı: Poetika.izm, – 2023. №2, – s. 90-99.

[38] Ahmedova, G.V. Edebiyatta gülmenin önemi ve felyetonlar // Zeitschrift für die Welt der Türken / Journal of World of Turks, – 2023, c. 15, №3, – s. 107-119.

[39] Əhmədova, G.V. Felyetonların adlandırılması: simvoliklik və informativlik // Uluslararası 6. Piri Reis Dil, Tarih, Coğrafya Kongresi, – Gəncə: Gəncə Dövlət Universiteti, – 14-15 noyabr, – 2023, – s. 36-37.

əsasən nəsrlə yazılan felyetonlar üzərində dayanılmasına baxmayaraq, onun həm də nəzmlə və yaxud dramatik nitq komponentlərindən istifadə edərək yazılmış formaları da mövcuddur. Hətta bir çox felyetonlarda bu sadaladığımız yazı texnikalarının eyni felyeton daxilində növbələşərək vəhdətdə çıxış etməsinin şahidi oluruq.

Felyeton janrında əsərlər qələmə alan sənətkarların bir qismi nəsrlə felyetonların yazılmasına üstünlük verirlər. Tədqiqatçıların da bəzi hallarda yalnız nəsrlə yazılan felyetonları felyeton hesab etməsinin nəticəsidir ki, yazıçıların seçilmiş əsərlərinin toplandığı kitablara onların əsasən nəsrlə yazılan felyetonları daxil edilir.

Ömər Faiq Nemanzadənin nəsrlə yazılmış bir çox felyetonları vardır. Onun bədii-publisistik nəsrində ironiya, satira və tənqidi yanaşma nəzərə çarpır. Problemləri işıqlandırmaq məqsədi daşıyan bu felyetonlar insanları vətənpərvərliyə, milli inkişafa səsləyir. Ö.F.Nemanzadənin nəsrlə yazılan “Sirkə” felyetonu avamlıq və cəhalətin tənqidinə həsr olunmuşdur.

Əliqulu Qəmküsar həm nəzmlə, həm də nəsrlə felyetonlar qələmə almışdır. Onun “Çirk” felyetonu dini mövhumatın, mollaların əməllərinin tənqidinə həsr olunmuşdur.

Əliheydər Qarayevin “Məşəl” jurnalında “Tartan-partan” başlığı altında bir çox felyetonları çap olunmuşdur. Bu felyetonlarda müəllifin dövrün ictimai proseslərinə münasibəti öz əksini tapmışdır. “Məşəl” jurnalının 5 dekabr 1919-cu il tarixli 2-ci nömrəsində “Binəva” imzası ilə dərc olunan “Tartan partan” başlıqlı felyetonda müəllif qeyd edir ki, o, nə yazsa da, qapıya qıfıl vurulacaq. Çünki o, yazılarında siyasi məsələləri işıqlandırır və tənqid edir.

Nəsrlə yazılan felyetonların bir qismində əsərin əvvəlində bir atalar sözü xatırlanır ki, bu da felyetonda ifadə edilən əsas fikrə uyğun seçilir. Fikri qüvvətləndirmək məqsədilə seçilən atalar sözü vasitəsilə əsərə giriş edildikdən sonra oxucular əsas hadisə ilə tanış olurlar. Məsələn, “Kirpi” jurnalının 1955-ci ildə çapdan çıxan 7-ci nömrəsində H.Həsinin “Aldım qoz, satdım qoz” sərlövhəli felyetonunda əsərə belə bir atalar sözü ilə giriş edilir.

III fəslin **“Dramatik nitq komponentləri əsasında yazılan felyetonlar”** adlanan ikinci paraqrafında monoloq, dfialoq və

poliloqların felyeton janrında istifadə imkanları öyrənilmişdir.

Felyetonlarda monoloqdan istifadə daha çox tipin öz dili ilə özünü ifşa etməsinə şərait yaradırsa, dialoqlar bəzən əsas obrazın, bəzən hər ikisinin, bəzi hallarda isə onların birlikdə ifadə etdiyi model tipin (əsasən toplu obrazların və ya mühitin) ifşası üçün istifadə olunur. "*Dialoji nitq, eləcə də monoloqlar ifşa, ironiya və dərin həyəcan ifadə edən ekspressivliklə birləşir*"[40]. Eyni zamanda, obrazların nitqindən istifadə felyetonları daha komik-satirik planda verməyə kömək edir. Felyetonlarda bir şəxsin nitqindən ibarət olan monoloqlarla yanaşı, iki şəxsin nitqindən ibarət dialoqlar, üç və daha artıq şəxsin nitqindən ibarət olan poliloqlardan da istifadə olunur. Dramatik nitq obrazların daxili dünyasını açmaqla bərabər, cəmiyyətdə mövcud olan problemlərin gərgin və kəskin xarakterini daha aydın göstərməyə imkan yaradır. Üzeyir Hacıbəylinin felyetonlarının nitq xüsusiyyətlərini araşdırarkən həmin felyetonların bir qisminin tamamilə monoloq, dialoq və ya poliloq şəklində qurulması müşahidə olunur. Bəzi felyetonlarında isə təhkiyənin daxilində müəyyən qədər monoloq və ya dialoqlardan istifadə edilir. Dialoqlar vasitəsilə tipin ümumi cəhətləri, nöqsanları üzə çıxır. Dialoqlardakı kiçik detallar belə cəmiyyətdəki böyük problemlərin diqqətə çatdırılmasında mühüm rol oynayır.

Üzeyir Hacıbəylinin monoloq, dialoq və ya poliloqlardan istifadə etdiyi felyetonlarına "Monoloq, ya müsəlmanca həsb-hal", "Yazı yazanın yazı yazmaqdan qabaq fikri" (monoloqdan ibarət); "Bir qədər qəzetəçilik dərsi", "Bir müsəlman ilə bir şvesarlının söhbəti" (dialoqdan ibarət); "Bir firəng ilə söhbətim" (həm nəqletmə, həm də dialoqdan istifadə olunmuşdur); "Maarif işləri, yaxud şurayi-valideyn", "İcmali-siyasi və yaxud Yevropanın halı" (poliloqdan ibarət); "Niyyəti-xalisə" (həm təhkiyə, həm də poliloqdan istifadə olunmuşdur) və s. kimi felyetonlarını misal göstərmək olar.

Nəriman Nərimanovun "Telefon" başlığı ilə çap olunan felyetonları dialoq formasında yazılan felyetonlardandır. Cahangir

[40] Əliyeva, Ş.Ş. Azərbaycan tənqidi realist dramaturgiyasında dialoq və monoloq: / filologiya üzrə fəlsəfə doktorluğu dis. / – Bakı, 2022. – s. 116.

Gözəlovun "Çillə yuxusu" adlı felyetonda poliloqdan istifadə edilmişdir. Felyetonda göstərilir ki, kolxoz sədri saxta sənədlər düzəldib dövlətin 200 min manat pulunu mənimsəyib. Burada kolxoz sədri yuxusunda hakim qarşısına çıxdığını görür.

III fəslin üçüncü paraqrafı **"Mənzum felyetonlar**" adlanır. Bu paraqrafda mənzum felyetonların forma xüsusiyyətləri dahi ədiblərimizin felyetonlarından verilən nümunələrə əsasında izah olunur.

Mənzum felyetonların parlaq nümunələrinə Mirzə Ələkbər Sabirin, Əli Nəzminin, Əliqulu Qəmküsarın, Cəfər Cabbarlının və b. sənətkarlarımızın yaradıcılığında rast gəlmək mümkündür.

İkinci Dünya müharibəsi zamanı Hitlerin törətdiyi qətliamlar, müharibə nəticəsində günahsız insanların həyatına son qoyulması Əli Nəzminin kəskin satira atəşinə tutduğu məsələlərdəndir. Onun 1942-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap olunan "Hitlerdən əlaltılarına", "Tülkü həccə gedir", "Canavarın Allaha etirazı" mənzum felyetonları bu mövzuda yazılmışdır.

Mir Cəlalın "İmperiyalistlər Tanca üzərində boğuşurlar" mənzum felyetonunda imperiyalistlərin şərq ölkələrini istismar edib bərbad eyləməsi onların öz dili ilə ifşa olunur.

Müasir dövrümüzdə yazılan mənzum felyetonlara nümunə olaraq Ağasəfanın "Tıxacda yazılmış şeir-felyeton" əsərini göstərə bilərik.

Yalnız nəsrlə, yalnız nəzmlə və ya yalnız monoloq, dialoq və poliloqdan ibarət olan felyetonlar olduğu kimi, elə felyetonlar da var ki, onlarda həm nəsr, həm nəzm, həm də dramatik nitq komponentlərindən istifadə olunur. Bir əsər daxilində hər üçündən istifadə olunan felyetonlardan əlavə, nəzmin içində nəsr, nəsrin içində dialoq, nəzmlə verilən dialoq kimi formalarda da yazılan felyetonlar mövcuddur. Əliqulu Qəmküsarın "Şeytan fəhləsi" felyetonu dialoqla başlayır, nəsrlə davam edir və nəzmlə sonlanır.

III fəslin dördüncü paraqrafı **"Silsilə, davamedici və balaca felyetonlar"** adlanır.

Qəzet və ya jurnal səhifələrində dərc olunan elə felyetonlar var ki, onlar bir ümumi başlıq altında davamlı şəkildə çap olunur. Bu tipli felyetonları silsilə felyetonlar kimi xarakterizə etmək olar. Belə

felyetonların yaranmasının əsas səbəblərindən biri ilk dəfə mətbu orqanlarda felyeton adlanan bölmədə silsilə şəklində müxtəlif mövzularda yazıların dərc olunması idi.

Üzeyir Hacıbəyli "Ordan-burdan", "O yan-bu yan" ümumi başlıqları altında silsilə felyetonları ilə mətbuatda çıxış etmişdir. Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Səməd Mənsurun mətbuatda çoxsaylı silsilə felyetonları işıq üzü görmüşdür.

XX əsrin əvvəllərində çap olunan bir çox mətbu orqanlarda "Balaca felyeton" başlığı ilə əsərlər işıq üzü görmüşdür. Xüsusilə "Molla Nəsrəddin" jurnalında balaca felyetonlara çox yer verilirdi. Nəriman Nərimanov, Əli Nəzmi, Nəcəf bəy Vəzirov və b. ədiblərimiz mətbuatda "Balaca felyeton" təqdimatı ilə əsərlər çap etdirmişlər.

Üçüncü fəsildə aparılan tədqiqatlar zamanı əldə olunan nəticələrin əks olunduğu məqalə və konfrans materialı[41],[42] çap olunmuş, elmi ictimaiyyətə çatdırılmışdır.

Dissertasiyanın yekunları **"Nəticə"** hissəsində aşağıdakı kimi ümumiləşdirilmişdir:

- Felyeton Azərbaycan ədəbiyyatında böyük əhəmiyyətə malik olan bir janrdır. Ədəbiyyatımıza kənardan gəlsə də, qısa bir zaman ərzində milli dəyərlərimiz, milli ideallarımız ilə zənginləşərək ədəbiyyatımızda vətəndaşlıq hüququ qazanmışdır. Bu janr ilk dəfə Fransada yaranmış, sonralar dünyanın bir çox ölkələrinin mətbuatlarında aparıcı janrlardan biri kimi tanınmışdır.
- Hazırda felyeton janrının mövcud olub-olmaması, janrın ölümü məsələsi ətrafında mübahisələr mövcuddur. Bəzi tədqiqatlarda artıq felyeton janrının ömrünü tamamladığı qeyd olunur. Lakin felyeton janrı çağdaş zamanda da öz mövcudluğunu davam etdirir. Janrın ölümü haqqında mübahisələr onun tarixi inkişaf prosesində müxtəlif formalarının yaranması ilə bağlıdır.

---

[41] Əhmədova, G.V. Üzeyir Hacıbəylinin felyetonlarında monoloq və dialoqlar // "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu" adlı Respublika elmi konfransı, – Bakı: BDU, – 2022, – s. 89-94.

[42] Əhmədova, G.V. Əli Nəzminin felyetonlarının forma və məzmun xüsusiyyətləri // – Bakı: Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal. – 2024. №2(125), – s. 174-177.

Felyeton-dialoq, felyeton-məktub, felyeton-mübahisə və s. kimi formaları məhz bu inkişafın nəticəsidir. Eyni zamanda müasir dövrdə yaranan bir çox ekran işlərinin, xüsusilə də skeç-şou mətnlərinin felyetonlar kimi xarakterizə edilməsi mümkündür.

- Bu tədqiqat işinə felyeton janrının hibridliyi məsələsi aydınlaşdırılmışdır. Felyeton həm publisistik, həm də bədii xüsusiyyətləri ilə diqqəti cəlb edən bir janrdır. Bu da onun hibrid janr olduğunun sübutu kimi təzahür edir. Bu hibrid xüsusiyyətləri ilə o, həm mətbuatın, həm də ədəbiyyatın vacib janrlarından birdir.

- Janrın ilkin rüşeymlərinin Avropada XVIII əsrin sonlarından yaranmağa başladığı tədqiqatlarda qeyd olunur. Lakin bir janr kimi formalaşması XIX əsrə təsadüf edir. Azərbaycan ədəbiyyatında isə XIX əsrin və XX əsrin formalaşıb inkişaf etmişdir. XX əsrin əvvəlləri Azərbaycan felyetonlarının ən mükəmməl nümunələrinin yarandığı dövrdür. "Kəşkül", "Molla Nəsrəddin", "İrşad", "Kəlniyyət", "Zənbur", "Arı", "Mirat", "Məşəl", "Lək-lək", "Bəhlul" və s. kimi mətbu orqanların səhifələrində felyeton janrının parlaq nümunələri işıq üzü görmüşdür.

- İctimai-siyasi məzmunu ilə seçilən felyeton janrında yazılan əsərlərdə vətən, millət idealının ifadəsi xüsusi yer tutur. Sosial-siyasi proseslərin gərgin inkişafı felyetonların məzmununun daha da kəskinləşməsinə gətirib çıxarmışdır

- Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Ömər Faiq Nemanzadə, Nəriman Nərimanov, Mir Cəlal, Səməd Mənsur, Məmmədəli Sidqi və b. ədiblər öz felyetonlarında zamanın nəbzini tutur, baş verən siyasi prosesləri işıqlandırırdılar.

- Cahangir Gözəlov, Əvəz Sadıq və b. publisistlər mətbuatda felyetonları ilə çıxış etmişdirlər. Belə bir dövrdə felyetonlarında mövcud problemlərin faktlarla ifşası yazıçıdan böyük cəsarət tələb edirdi. Bu felyetonlarda cəmiyyətdə, siyasi həyatda mövcud olan nöqsanlar kəskin tənqid olunurdu.

- Felyeton janrının həm məzmun, həm forma tipologiyasının aparılması böyük əhəmiyyətə malikdir. Siyasi-ictimai hadisələrin, ana dili məsələsi, doğma dilinə, söykökünə yadlaşanların ifşası, elm və təhsil məsələləri, savadsızlıq, avamlıq, cəhalət, rüşvətxorluq,

qadın hüquqsuzluğu, hakim dairələrin xalqa qarşı zülmü, vətəni, milləti düşünməyənlərin törətdiyi əməllər və s. felyetonların əsas məzmun xətlərini təşkil edir. Bütün bu problemlərin ifşası vətənin, millətin inkişafına xidmət edir. Nöqsanların ifşası və kəskin satira atəşinə tutulması problemlərin aradan qaldırılması məqsədi daşıyır.

- Felyetonların forma təsnifatının aparılması da olduqca vacibdir. Felyetonlar nəsrlə, nəzmlə və dramatik nitq komponentləri vasitəsilə formalaşır. Bəzən bir felyeton daxilində qeyd etdiyimiz formaların bir neçəsindən birlikdə istifadə edildiyinin də şahidi oluruq.

- Felyetonların içərisində dialoqla yazılan felyetonlar xüsusi maraq doğurur. Bu dialoqlar vasitəsilə tipik obrazların öz dili ilə özünü ifşasına yer verilir. Dialoqlar tipin daxili aləminin də açılmasına xidmət edir.

- Bəzən felyetonların yalnız nəsrlə yazılan formalarını felyeton kimi qeyd edirlər. Bir çox yazıçı və şairlərin seçilmiş əsərlərinin toplandığı kitablarda da "Felyetonlar" başlığı altında yalnız nəsrlə yazılan felyetonları verirlər. Lakin felyeton janrı müxtəlif formaları mövcuddur və bu formaların hər biri nəzərə alınmalıdır.

**Tədqiqatın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır**:


1. Felyetonun janr identifikasiyası // – Bakı: Poetika.izm, – 2021. №1, – s. 103-107.
2. Feuilleton as a Literary Journalistic Genre // Literature Studies 21', Studies in Humanities Conference, Fall 21, – İstanbul: DAKAM Yayınları, – 5 november, – 2021, – s. 55.
3. Feuilleton: Main Characteristics and Themes // Latin American International Conference on Social Sciences and Humanities, – Villahermosa, – 5-6 november, – 2021. – p. 106.
4. Üzeyir Hacıbəylinin felyetonlarında monoloq və dialoqlar // "Azərbaycan filoloji fikrində Qarabağ mövzusu" adlı Respublika elmi konfransı, – Bakı: BDU, – 1 noyabr, – 2022,

– s. 89-94.

5. Felyeton janrının təşəkkülündə Üzeyir Hacıbəylinin rolu // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı, – 2023. №1, – s. 71-77.
6. Felyetonların yaranması və inkişafında Cəlil Məmmədquluzadənin rolu // – Bakı: Poetika.izm, – 2023. №2, – s. 90-99.
7. Feuilleton in the Context of Journalistic and Literary Text // JoLaCE (Journal of Language and Cultural Education), – 2023. Volume 11, Issue 3, – p. 34-38.
8. Edebiyatta gülmenin önemi ve felyetonlar // Zeitschrift für die Welt der Türken / Journal of World of Turks, – 2023. c.15, №3, – s. 107-119.
9. Felyetonların adlandırılması: informativlik və simvoliklik // Uluslararası 6. Piri Reis Dil, Tarih, Coğrafya Kongresi, – Gəncə: Gəncə Dövlət Universiteti, – 14-15 noyabr, – 2023, – s. 36-37.
10. Azerbaycan edebiyatında felyetonlar: gelişimi ve işlevleri // "Gagavuzya: Dil, Tarih, Kültür" Uluslararası Bilimsel Sempozyumu, – Moldova: Komrat Devlet Üniversitesi, – 1 aralık, – 2023, – s. 141-145.
11. Felyetonların skeç-şouların yaranmasına təsiri // – Bakı: Filologiya məsələləri. – 2024. №5, – s. 351-357.
12. Əli Nəzminin felyetonlarının forma və məzmun xüsusiyyətləri // – Bakı: Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal. BDU, – 2024. №2(125), – s. 174-177.

Dissertasiyanın müdafiəsi 28 noyabr 2024-cü il tarixində saat 12^30 AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.06.2024

Kağızın formatı: A5

Həcm: 41761

Tiraj: 100